USAID
FROM THE AMERICAN PEOPLE
INTERNATIONAL FOUNDATION FOR ELECTORAL SYSTEMS · IFES · 30 Years
ცესკო
საქართველოს საარჩევნო ადმინისტრაცია
საარჩევნო სისტემების განვითარების, რეფორმებისა და სწავლების ცენტრი

# Seçicilər axınını nizamlayan komissiya üzvünün funksiyaları

- Seçki məntəqəsinə gəlmiş seçicilər axınını nizamlayın.

  **DİQQƏT!**

  ✓ Yeni koronavirusun səbəb olduğu infeksiyanın yayılmasının prevensiyası məqsədi ilə, seçicilər arasında təhlükəsiz məsafəni təmin edin (mümkün olduğu təqdirdə).

- Seçicilərdən Gürcüstan vətəndaşlığı haqqında şəxsiyyət vəsiqəsini və yaxud Gürcüstan vətəndaşlığı pasportunu təqdim etməyi və maskanı müvəqqəti olaraq çıxarmasını xahiş edin.

  **DİQQƏT!**

  ✓ Əgər seçicinin Gürcüstan vətəndaşlığını təsdiq edən şəxsiyyət vəsiqəsi və yaxud Gürcüstan vətəndaşlığı pasportu olmazsa, ona izah edin ki, səsvermədə iştirak edə bilməz.

  ✓ Əgər seçici Gürcüstan vətəndaşlığını təsdiq edən şəxsiyyət vəsiqəsi və yaxud Gürcüstan vətəndaşlığı pasportunu təqdim etdiyi zaman maskanı çıxartmasa, o səsvermə binasına buraxılmayacaqdır.

- Ultrabənövşəyi fənərlə seçicidə markirovka olunub-olunmamasını yoxlayın və əmin olduqda ki, seçicidə markirovka nəzərə çarpmır, bundan sonra ona səsvermədə iştirak etmək hüququ verin.

  **DİQQƏT!**

  ✓ Əgər ultrabənövşəyi fənərlə aşkar olunsa ki, seçicinin artıq markirovkası var, ona səsvermədə iştirak etmək qadağan olunur. Onun kimliyi barədə komissiya sədrinə məlumat verin.

- ✓ “Fiziki vəziyyətinə” əsasən də yuxarı ətraf orqanları olmadığına görə səsvermə prosedurunda müstəqil şəkildə iştirak edə bilməyən seçici markirovka yoxlanışı prosedurundan keçmir.

- ► Diqqət yetirin, seçicilərə mənsub qeydiyyat masasının yaxınlığında neçə nəfər seçici dayanmışdır. Əgər qeydiyyat masasının yanında iki seçici durmuşdursa, səsvermə binasına növbəti seçicinin daxil olmasını yubandır.
- ► Seçiciyə göstəriş verin ki, seçicilər siyahısına soyadının birinci hərfi və seçicilər siyahısında seçicinin nömrəsi daxil edilmiş qeydiyyat masasına yaxınlaşsın.

## Nəzərə alın!

- ✓ Yeni koronavirus səbəb olduğu infeksiyanın yayılmasının prevensiyası məqsədi ilə, seçici və səsvermə binasında olma hüququ olan digər şəxs maskasız və dezinfeksiyaedici məhlulla əlini təmizləmədən səsvermə binasına buraxılmayacaqdır.
- ✓ Yeni koronavirus səbəb olduğu infeksiyanın yayılmasının prevensiyası məqsədi ilə, səsvermə binasında olma hüququ olan şəxslərin termoskrininq keçmədən (temperatur yoxlama) səsvermə binasına buraxılmayacaqdır. Qızdırma - 37 ° C və ya 37 ° C-dən çox temperatur müəyyən olduqda, şəxs temperatur nəzarətinə məruz qalır (5 dəqiqəlik fasilələrlə). Təkrar qızdırma müəyyən olunduğu halda, şəxs seçki binasına buraxılmayacaq. Qızdırma halları müəyyən edildiyi barədə Məntəqə Seçki Komissiya sədrinə məlumat verilməlidir.
- ✓ Seçicilərə qarşı termoskrininq olmur.
- ✓ Səsvermə binasının çıxışında seçicilər üçün əllərin təmizlənməsinə görə dezinfeksiyaedici maye ilə təmin olunmalıdır.